Təhsil naziri ilk öncə təhsil müəssisəsi ilə tanış olmuşdur. Məktəbdə təlim-tərbiyə alan uşaqlara göstərilən xidmətlərlə maraqlanan nazir uşaqlarla birlikdə nahar etmiş, onların arzu və istəklərini dinləmişdir.

Nazirə məlumat verilmişdir ki, 1 nömrəli internat məktəb 1963-cü ildə fəaliyyətə başlamışdır. İnternat məktəbdə dövlət himayəsi altında yaşayan 159 şagirdin təlim-tərbiyəsi ilə 28 nəfər pedaqoji işçinin məşğul olduğu bildirilmişdir.

Sonra nazir məktəbin VIII və IX siniflərində vətənpərvərlik mövzusuna həsr olunmuş dərsi tədris etmişdir. Şagirdlərlə səmimi ünsiyyət əsasında təşkil edilmiş dərsdə interaktiv təlim metodlarından geniş istifadə olunmuşdur.

Qeyd edək ki, Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, 2013-2014-cü tədris ilində ölkənin bütün ümumi təhsil müəssisələrinin V-XI siniflərində ilk dərs saatı vətənpərvərlik mövzusuna həsr olunmuşdur. Dərsdə müəllimlə yanaşı, məktəbin elm, təhsil, mədəniyyət, ədəbiyyat, ictimai fəaliyyət, dövlət qulluğu, idman və digər sahələrdə uğur qazanmış nüfuzlu məzunlarından, valideynlərdən, şəhər, rayon, qəsəbə və kəndin nüfuzlu ziyalılarından və ya rəhbər şəxslərdən hər hansı birinin iştirakı nəzərdə tutulmuşdur. Əsas məqsədi ölkəmizin yeni cəmiyyət quruculuğunda gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi, onlarda təhsilə, elmə marağın daha da artırılması və geniş dünyagörüşün formalaşdırılmasından ibarət olan dərs şagirdlər tərəfindən maraqla qarşılanmışdır.